


FAİQ QİSMƏTOĞLU
faiq_qismetoglu@box.az


# NURLU ADAM...

...İnsan yaşa dolduqca onun əməlləri zaman-zaman çöhrəsinə, üzünə çıxır. Yaxşı insandırsa, o çöhrədə nur görünür. Əgər ömrü-günü pisliyə, şərə sərf olunubsa, o sifətdə ancaq şeytani hisslər, duyğular görmək mümkündür. Və bir də insanda heç vaxt özbaşına nur yarana bilməz. O nuru insanlara Allah-Təala əməli saleh və savab işlərinə görə qismət eləyir. Haqqında söhbət açmaq istədiyim tanınmış və istedadlı yazıçı-jurnalist Müzəffər Məlikməmmədov da məhz belə işıqlı və nurlu ziyalılardan sayıla bilər.

Mən bu fikri heç də təsadüfən işlətmədim. Hardasa Müzəffər müəllimi ötən əsrin 70-ci illərindən tanıyıram. Onda Müzəffər Məlikməmmədov "Sovet kəndi" qəzetində şöbə müdiri işləyirdi. Daha doğrusu, onunla məni istedadlı şair və əmim oğlu Vaqif Bəhmənli tanış eləmişdi. Bir gün Vaqif məndən soruşdu ki, SSRİ Jurnalistlər İttifaqına niyə keçmirsən? Gəl, kömək eləyim o ittifaqın üzvü ol. Guya o ittifaqın üzvü olanlar səndən savadlı, istedadlı adamlardı? Məni götürüb getdi Müzəffər Məlikməmmədovun otağına. Dedi ki, Faiq qohumum olmasına baxmayaraq, yaxşı jurnalistdir. Ona bir zəmanət yazarsan, ittifaqa keçəndə lazım olar. Həmin zəmanətin birini Müzəffət Məlikməmmədov yazdı, birini qəzetin şöbə müdiri Əkbər Rəhimov hazırladı, birini də Vaqif Bəhmənli özü yazdı. Bir aydan sonra onların köməkliyi ilə məni SSRİ Jurnalistlər İttifaqına üzv qəbul elədilər. Və o vaxt da bu mötəbər quruma hər jurnalisti qəbul etmirdilər. Ən azından üç tanınmış jurnalist sənin barəndə zəmanət yazmalı idi. Bəlkə də Vaqif Bəhmənli olmasaydı, mən o zəmanəti çox çətinliklə əldə eləyə bilərdim.

Müzəffər Məlikməmmədovun mənim barəmdə yazdığı zəmanətin bir neçə cümləsi indiyə kimi yadımdadır: "Faiq Hüseynov çox istedadlı və savadlı bir oğlandır. Onun gələcəyinə inanıram və zəmanət verirəm ki, o, müəyyən zaman kəsiyindən sonra bizim etimadımızı doğruldacaq, böyük mətbuatda öz sözünü deyəcək". Hələ mən onda Faiq Hüseynov imzasıyla yazılar qələmə alırdım və imzam da bir o qədər populyar, tanınmış deyildi. Məni Faiq Qismətoğlu eləyən Aqil Abbas oldu, mənə böyük meydan verdi və bu 28 ildə Azərbaycan oxucusuna tanıtdırdı. Mətbuatda nə uğur qazanmışamsa, buna görə böyük istedad sahibləri Aqil Abbasa, Vaqif Bəhmənliyə, Müzəffər Məlikməmmədova, Əkbər Rəhimova... minnətdaram. Minntədarlığa qalsa çoxlarının mənim boynumda halal haqqı var. Adlarını yazsam uzun bir siyahıya alınar. Çünki bu yazı mənim haqqımda deyil, qələminə, özünə və şəxsiyyətinə böyük hörmət elədiyim Müzəffər Məlikməmmədov barəsindədi. O Müzəffər Məlikməmmədov ki, mənim kimi onlarla gənc jurnalistə düz yol göstərib, arxa durub.



Bir neçə gün bundan əvvəl onun çalışdığı "Samur" qəzeti redaksiyasına getmişdim. Qapını açanda gördüm ki, otaqda yoxdu. Və bu vaxt qəzetin baş redaktoru Sədaqət xanımla görüşdüm. O Sədaqət xanım ki, Azərbaycan jurnalistikasının barmaqla sayılan istedadlı yazarlarındandır. Çünki sözün açığı, bu gün mətbuatımızda bu cür xanım yazarlar çox azdır. Onlar zamanında öz istedadları, peşəkarlıqları, savadları və əxlaqi dəyərlərilə Azərbaycan jurnalistikasında böyük iz qoyublar və nümunə göstəriblər. Mən həmişə Sədaqət Kərimovaya çox böyük hörmət bəsləmişəm. Ən azından ona görə ki, o bizim fakültənin məzunudu, çalışdığı 50 ilə yaxın müddətdə bu peşənin, bu sənətin şərəfini qoruyub saxlayıb. Eşq olsun belə namuslu, istedadlı və şərəfli xanım jurnalistə!

Sədaqət xanımla söhbət zamanı yazacağım yazının sərlövhəsini dedim. Çox xoşuna gəldi. Elə üstəlik də bu yazını yazmağa mənə Sədaqət Kərimova məsləhət bilmişdi. Bir neçə gün əvvəl Müzəffər müəllimin yanında olanda dedi ki, xəbərin var, iyul ayının 25-də Müzəffər müəllimin 70 yaşı tamam olur. Bəlkə siz də bir neçə kəlmə söz deyəsiniz. Onsuz da mənim ürəyimdə nə vaxtdan idi ki, Müzəffər Məlikməmmədov ilə bağlı bir yazı dolaşırdı. Ancaq o yazı hələ yetişməmişdi. İstetadlı jurnalist Sədaqət xanımın fikirlərindən sonra bu yazı yarandı və gəlib bilgisayara ürəyim istədiyi formada yekunlaşdırdım. Bayaq mən nurlu adam dedim. Çox vaxt elə fikirləşirəm ki, bu nur Müzəffər müəllimə hardandır? Yəqin həcc ziyarətində olub, ordan yaranıb. Amma insan var ki, bir əməli işi elə həcc ziyarətinə dəyər. Məsələn, Müzəffər müəllim "Hacı Davud" əsərini qələmə almaqla elə həccə getmiş sayılar. Çünki bu xalq qəhrəmanı uzun müddət xalq düşməni kimi tarixdə qalıb. Çünki o, rus və fars imperiyasına qarşı öz xalqının azadlığı yolunda mübarizə aparıb. Bu kitabı araya-ərsəyə gətirmək üçün Müzəffər Məlikməmmədov 27 il arxivlərdə işləyib, 764 mənbədən 840 arxiv sənədindən istifadə eləyib. O qədər məzmunsuz, mənasız tarixi kitablar işıq üzü görüb. Və bu tarixi kitablara görə, kimlərsə tarix elmləri namizədi, tarix elmləri doktoru adı alıb. Müzəffər müəllimin bu kitabı ən yüksək elmi ada layiqdir. Orda həm bir xalqın tarixi var, həm onun mədəniyyəti əks olunub, həm də qəhrəmanlıq salnaməsi qələmə alınıb. O kitabdan, bu kitabdan köçürülüb elmi dərəcə alan alimlərin kitabları vallah, bir müddətdən sonra heç bir qəpiyə də dəymir.

Müzəffər Məlikməmmədovun indiyə kimi 22 kitabı işıq üzü görüb. Bu kitabın siyahısına "İgid ömrü", "Gecə işığı", "Xaçmaz zəfər gözləyir", "Polkovnikin andı", "Qanlı dərə" kitabları əlavə edilə bilər. Hər bir kitab Müzəffər müəllimin yuxusuz gecələrinin, alın tərinin, narahat günlərinin bəhrəsidir. Və hər bir kitabı araya-ərsəyə gətirənə qədər o, ömrünü bu yolda şam kimi əridib. Şam kimi əridib, qaranlıqların üstünə əbədi sönməz bir işıq salıb...

Müzəffər Məlikməmmədovun ömür yolundan: "Müzəffər Nizami oğlu Məlikməmmədov 1948-ci il iyul ayının 25-də Quba rayonunun Digah kəndində müəllim ailəsində anadan olub. 1970-ci ildə Leninqrad Hərbi Müxbirlər məktəbini, 1975-ci ildə isə Azərbaycan Dövlət Universitetinin (BDU) jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirib. Müxtəlif dövrlərdə "Qızıl Qusar", "Sovetskiy moryak" "Sovet kəndi", "Həyat", "Bərəkət", "Alpan" qəzetlərində müxbir, baş müxbir, şöbə müdiri, redaktor müavini, redaktor vəzifələrində çalışıb. Hazırda "Samur" qəzeti redaksiyasında baş redaktorun müavinidir. SSRİ dövründə 70-dən çox mətbu orqanı ilə əməkdaşlıq edib, son 45 il ərzində mətbuatda postsovet məkanında yaşayan xalqların 24 dilində 8000-dək məqalələri, oçerkləri, esseləri, reportajları, korrespondesiyaları, felyetonları, zarisovkaları, reydləri və informasiyaları dərc olunub. Jurnalistika sahəsində qazandığı uğurlara görə o, SSRİ dövründə "Əməkdə fərqlənməyə görə" və "Əmək igidliyinə görə" medallarına, Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatına, SSRİ və Azərbaycan SSRİ Xalq nəzarəti Komitələrinin, Azərbaycan Respublikasının Mətbuat və İnformasiya Nazirliyinin və digər nazirliklərin Fəxri Fərmanlarına layiq görülüb".

Bu cür istedadlı və peşəkar jurnalistin bu yaxınlarda, yəni konkret olaraq iyul ayının 25-də 70 yaşı tamam olur. Müzəffər Məlikməmmədov bu 70 yaşı çox şərəflə, namusla, qürurla yaşayıb. Və Allah-Təaladan ona verilən ən böyük bir mükafat var: çöhrəsindəki nur! Allah-Təala hər adama, hər insana bu nuru vermir. Hər dəfə onunla görüşəndə o çöhrəyə baxıram, o nuru hiss edirəm və düşünürəm ki, Müzəffər Məlikməmmədov elə dünyanın ən varlı adamıdır.

Paşa Qəlbinurun bir şeirini oxumuşam, təəssüf ki, şeir əzbər yadımda qalmayıb. Məzmunu bundan ibarətdir ki, Paşa Qəlbinur çox qürurla və sevinclə bildirir: bir gün mən ölsəm, kəfən tapmasanız məni abrıma büküb dəfn edərsiniz. Çox möhtəşəm və unikal bir poetik deyim!

İndiki zamanda abrını, həyasını, ismətini qoruyub saxlamaq hər insana qismət olmur. Bax, mən deyərdim ki, Müzəffər Məlikməmmədov da öz abrını, tərbiyəsini, qürurunu qoruyub saxlamış nurlu kişilərdən biridir. 70 yaşın mübarək olsun, Nurlu Kişi!!!

### *Trampdan sərt etiraz*

*ABŞ prezidenti Donald Tramp Avropa Komissiyasının "Google" şirkətinə kəsdiyi cəzanı tənqid edib.*

*Tramp ABŞ şirkətinə verilən 5,06 milyard dollarlıq rekord cəzanı istismar adlandırıb.*

*"Avropa İttifaqı bizim ən böyük şirkətlərimizdən biri olan "Google"a 5 milyard dollarlıq cəza verdi. Mən sizə demişdim. ABŞ-ı doğrudan istismar edirlər, ancaq bu uzun sürməyəcək" - deyə o qeyd edib.*

*Qeyd edək ki, Avropa Komissiyasının qərarına əsasən, "Google" şirkəti Aİ-nin antiinhisar qanunvericiliyini pozduğu üçün 4,34 milyard avro məbləğində cərimə ödəməlidir.*

*Qərarda bildirilir ki, şirkət Android əməliyyat sistemi ilə çalışan cihazlardakı trafikin istisnasız olaraq yalnız "Google" axtarış sistemi üzərindən aparılması üçün şəbəkə operatorlarına və cihaz istehsalçılarına şərt qoyub. Avropa Komissiyası şirkətə səhvlərini düzəltməsi üçün 90 gün vaxt verib. Əks halda, "Google"un daxil olduğu "Alphabet Holding"in dünya üzrə dövriyyəsinin 5%-i həcmində əlavə cəza kəsiləcək.*

*ABŞ şirkəti isə Avrokomissiyanın qərarından şikayət verəcəyini açıqlayıb.*

### Dünyanın mötəbər gənclərinin reytinqi açıqlanıb

*"Fortune" dərgisi dünyanın 40 yaşa qədər olan ən mötəbər insanlarının siyahısını tərtib edib.*

*"40 under 40" reytinqinin ilk 2 sırasını "Facebook"un yaradıcısı və rəhbəri Mark Zukerberq ilə "Instagram"ın yaradıcılarından biri Kevin Sistrom bölüşür.*

*"Airbnb" həmtəsisçisi və direktoru, 36 yaşlı Brayan Çeski reytinqdə 5-ci, "Dropbox" şirkətinin rəhbəri, 35 yaşlı Dryu Hyuston və "Spotify" şirkətinin direktoru, 35 yaşlı Deniyel Yek 8-ci pillədə qərarlaşıblar. "Snap"ın rəhbəri, 28 yaşlı Evan Şpiqel 16-cı, müğənni Rianna 21-ci yeri tutublar.*

*"VKontakte" sosial şəbəkəsinin və "Telegram" messencerinin yaradıcısı Pavel Durov siyahıda 25-ci, digər Rusiya əsilli iş adamı, "Ethereum" kriptovalyutasının yaradıcısı Vitalik Buterin isə 22-ci yerdədir.*